"AZƏRBAYCAN DƏMİR YOLLARI"
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# YÜK DAŞIMALARI ÜZRƏ XİDMƏTLƏRƏ GÖRƏ YIĞIMLARIN HESABLANMASI VƏ TƏTBİQİ QAYDALARI

Bakı şəhəri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
Yük və kommersiya Xidməti
tərəfindən hazırlanmışdır.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
sədrinin 24 aprel 2017-ci il tarixli 44/S nomrəli əmri ilə təsdiq edilmişdir.



**Mündərəcat:**


1. Ümumi müddəlar 4
2. Yüklərin tərəzidə çəkilməsinə görə yığım 5
3. Ümumi istifadə yollarında boşaldılan və yüklənən vaqonlara görə tətbiq edilən vahid yığım 5
4. MDB, Baltikyanı və Gürcüstan dəmir yolu administrasiyalarına məxsus vaqon və konteynerlərə görə yığımlar 7
5. Digər yığım və xidmətlər 7
6. Dəmir yoluna məxsus olmayan dalan yoluna vaqonların verilib-götürülməsinə görə yığım 10
7. Vaqon və konteynerlərdən istifadəyə görə yığım 13
8. Konteyner meydançalarında konteyner əməliyyatına tətbiq edilən yığım 18
9. Yük daşımaları üzrə xidmətlərə görə yığımların hesablanması və tətbiqi qaydalarına dair misallar 19

## 1. Ümumi müddəalar

.1 Dəmir Yolu Qanununu, Dəmir Yolu Nizamnaməsini, Beynəlxalq Yük Daşımaları haqqında Sazişi rəhbər tutaraq dəmir yolu xidmətlərindən istifadə edən bütün yük göndərənlərdən, yükalanlardan və dalan yolu sahiblərindən stansiyalar tərəfindən onlara göstərilmiş xidmətlərə görə yığımlar tutulur.

2 Göstərilən yığım qiymətləri daşımaların həcmindən asılı olaraq, iqdisadi cəhətdən məqsədəuyğun olarsa aşağı endirmək və ya yuxarı qaldırmaq müvafiq əmr/göstərişlərlə tənzimlənir.

3 Dəmir yolu tərəfindən göstərilmiş xidmətlərə: yükün mühafizəsi və müşayiət olunması; yükün tərəzidə çəkilməsi; ümumi istifadə yollarında (yük həyətlərində, yükləmə-boşaltma yollarında, dəmir yoluna məxsus dalan yollarında və s.) vaqonların dəmir yoluna məxsus olmayan dalan dəmir yoluna verilib-götürülməsi və digər xidmətlər aiddir.

4 Bu xidmətlərə görə yığımlara əlavə dəyər vergisi daxil edilməmişdir və ödəmələr Azərbaycan manatı ilə həyata keçirilir.

5 Yığımlar hesablanarkən aşağıdakı kimi yuvarlaqlaşdırma aparılır. Hər bir qiymət artırma və azalma əmsalları tətbiq edilərək hesablanan yığımlara bu yuvarlaqlaşdırma qaydaları şamil edilir.

- Tarif qiyməti manat dəqiqliyi ilə müəyyən edilən hallarda 50 qəpikdən az olan məbləğ nəzərə alınmır, 50 qəpiyə bərabər və 50 qəpikdən çox olan halda isə 1.00 manat götürülür.
- Tarif qiyməti 10 qəpiyə qədər dəqiqliklə müəyyən edilən hallarda 5 qəpikdən az olan məbləğ nəzərə alınmır, 5 qəpiyə bərabər və 5 qəpikdən cox olan halda isə 10 qəpik götürülür.
- Tarif qiyməti 1 qəpiyə qədər dəqiqliklə müəyyən edilən hallarda 0.5 qəpikdən az olan məbləğ nəzərə alınmır, 0.5 qəpiyə bərabər və 0.5 qəpikdən çox olan halda isə 1 qəpik götürülür.

Beynəlxalq istiqamətdən daxil olunmuş yüklü vaqonlar (özəl və icarədə olan) boşaldıqdan sonra boş halda geri qayıtması haqqında təlimat stansiyaya təqdim edilənə qədər açılmış yaddaş vərəqəsi bağlanmamış hesab edilir.



## 2. Yüklərin tərəzidə çəkilməsinə görə yığım

2.1. Yüklərin dəmir yoluna məxsus vaqon tərəzisində çəkilməsinə görə yığım cədvəl № 1- dəki tarif qiymətlərindən istifadə edilməklə hesablansın.

2.2. Yük göndərən tərəfindən yol qaiməsinə yükün çəkisi haqqında daxil edilmiş məlumatla yükün faktiki çəkisinin düzgünlüyünün yoxlanması məqsədilə və təyinat stansiyasında yük verilərkən stansiya işçiləri tərəfindən seçmə olaraq bir neçə vaqonun çəkilməsi zamanı yığım tutulmasın.

2.3. Yükün çəkisinin yoxlanması məqsədi ilə yükün və taranın stansiya işçilərinin iştirakı ilə yük sahibinin tərəzisində çəkilməsinə görə hər əməliyyat üçün yığım tutulsun:

- 1.50 manat - vaqon tərəzidə bir vaqonun çəkilməsinə görə;
- 0.40 manat - yük tərəzisində 1 ton yükün çəkilməsinə görə;
- 1.00 manat - avtomobil tərəzisində 1 avtomobilin çəkilməsinə görə.

***Cədvəl № 1***

| | Tərəzidə çəkmə şərtləri | ölçü vahidi | qiymət, (manat) |
|---|---|---|---|
| 1 | Dəmir yoluna məxsus lokomotivin vasitəsilə vaqonun vaqon tərəzidə çəkilməsi üçün | Vaqon | 45,00 |
| 2 | Taralı ədədi yüklərin yük tərəzisində çəkilməsi | ton | 1.00 |

**Qeyd:** Əgər vaqon tərəzi başqa digər stansiyada quraşdırılıbsa bu halda yol haqqı daxili yük daşımaları tariflərinə uyğun hesablansın.

## 3. Ümumi istifadə yollarında (yük həyətlərində, yükləmə-boşaltma yollarında, dəmir yoluna məxsus dalan yollarında və s.) boşaldılan və yüklənən vaqonlara (məxsusluğundan asılı olmayaraq) görə tətbiq edilən vahid yığım

3.1. Stansiyaya yük əməliyyatı üçün daxil olmuş vaqonlara ümumi istifadə yollarında "məlumat verməyə görə yığım", "vaqonların verilib-götürülməsi yığımı" "vaqonların istifadəsinə görə yığım" və "yüklərin qorunmasına görə yığım" ümumiləşdirilərək vahid yiğim tətbiq olunsun. (MDB, Gürcüstan, Latviya, Litva, Estoniya dəmir yolu administrasiyalarına məxsus vaqon və konteynerlərin istifadə yığımları istisna olmaqla)

3.2. Ümumi istifadə yollarında yük əməliyyatı üçün eyni vaxtda, eyni yükalanın (yükgöndərənin) ünvanına daxil olmuş vaqonların, stansiyanın

texnoloji iş prosessi nəzərə alınmaqla yükləmə-boşaltma yerinə verildiyi gün daxil olmaqla, növbəti günün 24 saat müddətində vahid yığım cədvəl № 2-yə əsasən hesablansın. Refrijerator vaqonlar, 16 və yuxarı oxlu transpartyorlar üçün vahid yığım, cədvəl № 2-də göstərilmiş qiymətlərə 3 əmsalı, vaqon termoslar üçün isə 1.5 əmsalı tətbiq edilməklə hesablansın (misal 1, misal 2).

3. 3.2. bəndində qeyd edilən müddətdən sonrakı vahid yığım hər vaqon/gün üçün 125.00 manat, refrijerator vaqonlar, 16 və yuxarı oxlu transpartyorlar üçün 235.00 manat, vaqon termoslar üçün isə 160.00 manat vahid yığım hesablansın. Tam olmayan gün tam gün kimi qəbul edilsin (misal 3).

4. Ümumi istifadə yollarında özəl və ya icarədə olan boş vaqonların hər hansı səbəbdən dayanmasına görə yığım, gəldiyi gün hesab edilməklə hər vaqon/gün üçün hər oxa görə 10.00 manat tutulsun. Tam olmayan gün tam gün kimi götürülsün.

5. Yükgöndərən, sifarişi əsasında stansiyaya gəlmiş xüsusi vaqonların yüklənməsindən imtina edirsə, vaqonun boş yürüşünə görə hər vaqon üçün 60.00 manat, refrijerator vaqonları üçün isə hər vaqon üçün 120.00 manat yığım tutulsun. Əgər hazır soyudulmuş vaqonların yüklənməsindən imtina edilirsə, əlavə hər vaqon üçün 40.00 manat yığım tutulsun.

6. Yüklərin yükalan (yükgöndərən) tərəfindən vaxtında boşaldılmaması (yüklənməməsi) səbəbindən stansiyanın işində çətinliklər yaranarsa, Cəmiyyət rəhbərliyi tərəfindən vahid yığımın məbləği yükalanı (yükgöndərəni) yazılı formada məlumatlandırdıqdan 24 saat sonra 5 dəfəyə qədər artırıla bilər.

***Cədvəl № 2***

| Vaqon sayı | Ölçü vahidi (manat) | Qeyd |
|---|---|---|
| 1 | 100.00 | |
| 2 | 150.00 | |
| 3 | 210.00 | |
| 4 | 240.00 | |
| 5 | 300.00 | |
| 5 dən çox hər vaqona görə | 50.00 | |



4. **MDB, Baltikyanı və Gürcüstan dəmir yolu administrasiyalarına məxsus vaqon və konteynerlərə görə yığımlar**

MDB, Gürcüstan və Baltikyanı dövlətlərinə məxsus vaqon və konteynerlərin istifadəsinə görə yığım vaqon və konteynerlərin tipinə görə ayrılıqda cədvəl № 3-də göstərilmişdir.

***CədvəlNº 3***

| | *Vaqonların Tipi* | *1 vaqon/sutkaya görə tarif (isveçrə frankı)* | *Qeyd* |
|---|---|---|---|
| 1 | Qapalı | 22.49 | |
| 2 | Platforma | 18.54 | |
| 3 | Yarımvaqon | 27.34 | |
| 4 | Çən | 25.99 | |
| 5 | Digər vaqonlar | 22.80 | |
| 6 | Taxıldaşıyan | 21.76 | |
| 7 | ARV vaqon-termos | 21.61 | |
| 8 | Transportyor 12 oxa qədər | 23.40 | |
| 9 | Transportyor 16 və 20 ox | 72.14 | |
| 10 | Transportyor 24-oxdan yuxarı | 111.62 | |
| 11 | 3-5 ton konteyner | 0.65 | |
| 12 | 10 ton və yuxarı | 2.60 | |

**Qeyd:** MDB, Gürcüstan və Baltikyanı dövlətlərinə məxsus vaqon və konteynerləri gecikdirildikdə 30 vaqon-sutkayadək 1.0 əmsalı, 30-45 vaqon-sutkayadək 1.3 əmsalı və 45 vaqon-sutkadan yuxarı 3.0 əmsalı tətbiq edilsin.

**5. Digər yığım və xidmətlər**

5.1 Yükün satılması (realizasya): yük sahibi təyinat stansiyasında qaimədə göstərilən ünvanda tapılmırsa və yükgöndərən tərəfindən yükün kimə verilməsi haqqında heç bir göstəriş yoxdursa, dəmir yolu öz Nizamnaməsinə müvafiq olaraq yükün satılmasından əldə olunan məbləğdən yükün başqasına verilməsinə görə yaranan xərclərinin ödənməsinə aşağıdakı qaydada yığım tətbiq edilsin.

***Cədvəl № 4***

| Yığımın tutulma şərti | Ölçü vahidi (ton) | Qiymәti (manat) |
|---|---|---|
| Taralı, ədədi yüklər və kiçik göndərmə ilə daşınan yüklər üçün | hər 1 ton yük üçün | 7.00 |
| Vaqon göndərmədə qalaq yüklər üçün | hər 1 ton yük üçün | 4.00 |

.2 Dəmir yolunda yükgöndərənin yaxud yükalanın və ekspeditorun yazılı müraciəti əsasında yüklərin ünvanının dəyişdirilməsinə görə hər vaqona 35.00 manat yığım hesablansın.

.3 Yükgöndərən tərəfindən daşınmaya təqdim olunmuş yükün qiymətləndirilməsinə görə hər 100.00 manata 0.20 manat yığım tutulsun.

4 Vaqon və konteynerdə naryad əsasında daşınmaya təqdim edilmiş yükün göndərilməyən hər 1 ton üçün 1.00 manat yığım, istifadə olunmamış naryadın vaxtının növbəti aya keçirilməsi və digər düzəlişlərə görə 20.00 manat yığım tutulsun.

5 Vaqonun yük qalıqlarından, rekvizitlərdən təmizlənməməsinə görə hər bir vaqon üçün 10.00 manat yığım tutulsun.

6 Vaqon boşaldıqdan sonra yuyulması üçün 35.00 manat yığım tutulsun.

7 Vaqon və konteynerlərin Bərəyə mindirilib-düşürülməsinə görə hər bir vaqon üçün 70.00 ABŞ dolları məbləğində yığım tutulsun.

8 Plandankənar (plandan əlavə) vaqonun ayrılmasına görə 74.00 manat, 40 və 45 futluq konteynerlərin ayrılmasına görə 50.00 manat, 20 futluq konteynerlərin ayrılmasına görə 32.00 manat, 3.5 tonluq konteynerlərin ayrılmasına görə 16.00 manat yığım tutulsun.

9 Yük sahibinin rəsmi müraciəti əsasında yükün komissiyon şəkildə təhvil verilməsinə görə 50.00 manat yığım tutulsun.

10 Yük həyətlərində aparılan yükləmə-boşaltma əməliyyatları zamanı hər vaqona görə avtomaşın və kranların yük həyətindən istifadəsinə görə 40.00 manat yığım tutulsun.

11 Beynəlxalq istiqamətlərdən daxil olmuş sərhəd stansiyasında açılaraq saxlanılan vaqonlara tərtib olunmuş ümumi formalı akt əsasında boş dayanmasına görə hər vaqon/gün üçün təyinat stansiyasında 100.00 manat vahid yığım tutulsun.

2 Yük daşınmasına görə yazılı (teleqrafla) teleqramın verilməsinə görə 15.00 manat yığım tutulsun.

3 QU-1 formalı hesabatın doldurulmasına görə 0.50 manat yığım tutulsun.



5.14 Yükün mühafizə və müşayiət olunmasına görə yığım "Azərbaycan Dəmir Yolları"QSC sədrinin qüvvədə olan əmri ilə tənzimlənir.

5.15 Yük dəmir yol stansiyasına təyin olunmuş yükləmə günündən tez gətirilərək və ya yük vaqondan boşaldılaraq stansiya ərazisində saxlanılarsa yükün qorunmasına görə cədvəl № 5-ə əsasən yığım hesablansın.

***Cədvəl № 5***

| Saxlama üsulları | Ölçü vahidi (ton) | Qiymət manat/gün |
|---|---|---|
| Açıq yerdə, | 1 | 0.40 |
| o cümlədən təhlükəli yük | 1 | 0.50 |
| Örtülü yerdə, | 1 | 1.40 |
| o cümlədən təhlükəli yük | 1 | 2.00 |
| Örtülü anbarda | 1 | 2.50 |
| o cümlədən təhlükəli yük | 1 | 3.50 |
| Heyvanlar | baş sayına görə | 1.00 |
| Dəmir yoluna məxsus konteynerdə | | |
| 5 tona qədər | konteynerə görə | 7.00 |
| 10 tondan 24 tona qədər | -- | 22.00 |
| 24 ton və 24 tondan yuxarı | -- | 36.00 |
| Dəmir yoluna məxsus olmayan konteynerdə | | |
| 5 tona qədər | konteynerə görə | 2.00 |
| 10 tondan 24 tona qədər | -- | 6.00 |
| 24 ton və 24 tondan yuxarı | -- | 10.00 |

## 6 Dəmir yoluna məxsus olmayan dalan yoluna vaqonların verilib-götürülməsinə görə yığım

.1 Dəmir yoluna məxsus olmayan dalan yoluna yüklü və ya boş vaqonların verilib-götürülməsi, dalan yolunun istismarı və vaqonların dalan yoluna verilib-götürülməsi barədə bağlanmış müqavilənin şərtləri daxilində cədvəl № 6- dakı qiymətlərə əsasən hesablansın.

.2 Dəmir yolunun lokomotivi ilə, eyni dalan yolunda yük əməliyyatı aparan bütün hüquqi və fiziki şəxslərdən, vaqonların birgə verilib-götürülməsindən asılı olmayaraq verilib-götürülmə yığımı ayrı-ayrılıqda tutulsun.

3 Dəmir yolu tərəfindən icarəyə verilmiş ümumi istifadə yoluna vaqonların verilib-götürülməsinə görə yığım (dalan yoluna xidmət göstərilən xidmət şərtlərindən və bağlanmış müqavilədən asılı olaraq) cədvəl № 6-ya əsasən hesablansın.

4 Dalan yolu sahibinə məxsus lokomotivlə ümumi istifadə yoluna çıxmaqla vaqonların verilib-götürülməsi yığımı, dalan yolu sahibinin lokomotivinin ümumi istifadə yoluna çıxdığı məsafəyə uyğun cədvəl № 6-dakı qiymətlərə 50% güzəşt tətbiq edilməklə, dəmir yolunun lokomotivi ilə isə cədvəl № 6-dakı qiymətlərə uyğun hesablansın.

5 Dalan yolu sahibinin sifarişi əsasında dəmir yoluna məxsus lokomotivin başqa stansiyadan cəlb edilərsə və ya vaqonların dalan yolunda əlavə manevr işinin aparılmasına görə (yaddaş vərəqəsində lokomotivin manevr işinin başlama və qurtarma vaxtı qeyd olunur) yığım, cədvəl № 7-də göstərildiyi kimi hesablanılsın. Bu zaman hər yarım saatdan az olan vaxt yarım saat kimi götürülsün.

6 Vaqonların dalan yoluna verilib-götürülmə məsafəsi, əsas stansiyanın hər iki tərəfindəki sərhəddinin ortasından dalan yolunun birləşdiyi nöqtəyə (bilavasitə stansiya ilə birləşən yolayrıcı) qədər olan məsafənin üzərinə, birləşdiyi nöqtədən vaqonların verilib-götürülməsi yerinin sonuna qədər məsafə əlavə edilməklə götürülsün.

Dalan yoluna vaqonların verilib-götürlməsi barədə müqaviləsi olmayan digər hüquqi və fiziki şəxslərin müraciəti əsasında, ünvanlarına gəlmiş vaqonların həmin dalan yolu sahibinin müvafiq yazılı icazəsi ilə hər verilib-götürülmə əməliyyatının aparılması zamanı əlavə 50.00 manat yığım hesablansın.

Dalan yolunda boşaldılması (yüklənməsi) üçün daxil olmuş vaqonlar (konteynerlər) (məxsusluğundan asılı olmayaraq) yükalanın (yükgöndərənin) təqsiri səbəbindən dəmir yolunun ümumi istifadə yolunda gecikdirilərsə, vaqonların (konteynerlərin) ümumi istifadə



yollarında dayanmasına görə yığım stansiyanın texnoloji iş prosessi nəzərə alınmaqla müvafiq olaraq cədvəl № 8 və cədvəl № 9-dakı qiymətlərə 1.5 əmsalı tətbiq edilməklə hesablansın və əgər stansiyanın işində çətinliklər yaranarsa, Cəmiyyət rəhbərliyi tərəfindən yığımın məbləği yükalanı (yükgöndərəni) yazılı formada məlumatlandırdıqdan 24 saat sonra 5 dəfəyə qədər artırıla bilər.

6.9 Dalan yolunda dalan yolu sahibindən başqa yükləmə-boşaltma əməliyyatı aparan digər hüquqi və fiziki şəxslərin ünvanlarına daxil olan yüklü və boş vaqonlara (mənsubiyyətindən asılı olmayaraq), vaqonların dalan yoluna verildiyi vaxtdan 24 saat müddətindən sonrakı hər gün hesabına oxa görə 30.00 manat yığım tətbiq edilsin (tam olmayan gün tam gün kimi götürülsün).

6.10 Dəmir yoluna məxsus olmayan dalan yoluna eyni vaxtda verilən və müxtəlif vaxtlarda hissə-hissə götürülən vaqonlara görə vaqonların verilib-götürülmə yığım, vaqonların sayına müvafiq olaraq cədvəl № 6-da göstərilən qiymətlər cəmlənərək 2-yə bölünməklə hesablansın (misal 4)

*Cədvəl № 6*

Dalan yoluna vaqonların verilib-götürülməsinə görə qiymətlər (manatla)

| Vaqonların verilib-götürülməsi məsafəsi hər iki başa km-lə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1-ə qədər | 61.00 | 77.00 | 99.00 | 122.00 | 152.00 | 176.00 | 209.00 |
| 1 və 1-dən cox 2-yə qədər | 70.00 | 90.00 | 117.00 | 146.00 | 186.00 | 215.00 | 275.00 |
| 2 və 2-dən cox 3-ə qədər | 79.00 | 104.00 | 135.00 | 171.00 | 218.00 | 254.00 | 340.00 |
| 3 və 3-dən cox 4-ə qədər | 87.00 | 116.00 | 154.00 | 196.00 | 252.00 | 294.00 | 406.00 |
| 4 və 4-dən cox 5-ə qədər | 96.00 | 129.00 | 173.00 | 220.00 | 285.00 | 333.00 | 472.00 |
| 5 və 5-dən cox 6-ya qədər | 105.00 | 142.00 | 191.00 | 245.00 | 317.00 | 372.00 | 537.00 |
| 6 və 6-dan cox 7-yə qədər | 114.00 | 155.00 | 209.00 | 270.00 | 351.00 | 411.00 | 603.00 |
| 7 və 7-dən cox 8-ə qədər | 123.00 | 168.00 | 229.00 | 295.00 | 384.00 | 451.00 | 669.00 |
| 8 və 8-dən cox 9-a qədər | 131.00 | 181.00 | 247.00 | 319.00 | 417.00 | 490.00 | 734.00 |
| 9 və 9-dan cox 10-a qədər | 140.00 | 194.00 | 265.00 | 344.00 | 450.00 | 529.00 | 799.00 |
| 10 və 10-dan cox 11-ə qədər | 150.00 | 209.00 | 288.00 | 374.00 | 490.00 | 527.00 | 865.00 |
| 11 və 11-dən cox 12-yə qədər | 161.00 | 225.00 | 311.00 | 404.00 | 530.00 | 624.00 | 930.00 |
| 12 və 12-dən cox 13-ə qədər | 171.00 | 241.00 | 333.00 | 434.00 | 570.00 | 672.00 | 996.00 |
| 13 və 13-dən cox 14-ə qədər | 182.00 | 257.00 | 355.00 | 464.00 | 610.00 | 719.00 | 1061.00 |
| 14 və 14-dən cox 15-ə qədər | 192.00 | 272.00 | 378.00 | 494.00 | 649.00 | 766.00 | 1127.00 |
| 15 və 15-dən cox 16-ya qədər | 203.00 | 288.00 | 401.00 | 524.00 | 689.00 | 814.00 | 1192.00 |
| 16 və 16-dan cox 17-yə qədər | 213.00 | 303.00 | 423.00 | 554.00 | 729.00 | 862.00 | 1257.00 |
| 17 və 17-dən cox 18-ə qədər | 223.00 | 319.00 | 445.00 | 584.00 | 769.00 | 909.00 | 1323.00 |
| 18 və 18-dən cox 19-a qədər | 234.00 | 334.00 | 468.00 | 614.00 | 809.00 | 957.00 | 1389.00 |
| 19 və 19-dan cox 20-yə qədər | 244.00 | 350.00 | 489.00 | 644.00 | 849.00 | 1005.00 | 1454.00 |
| 20 və 20-dən cox 21-yə qədər | 255.00 | 366.00 | 513.00 | 674.00 | 889.00 | 1052.00 | 1519.00 |
| 21 və 21-dən cox 22-yə qədər | 265.00 | 381.00 | 535.00 | 704.00 | 909.00 | 1099.00 | 1584.00 |
| 22 və 22-dən cox 23-ə qədər | 276.00 | 397.00 | 558.00 | 734.00 | 969.00 | 1147.00 | 1650.00 |
| 23 və 23-dən cox 24-ə qədər | 286.00 | 413.00 | 581.00 | 764.00 | 1009.00 | 1195.00 | 1715.00 |
| 24 və 24-dən cox 25-ə qədər | 297.00 | 429.00 | 603.00 | 794.00 | 1049.00 | 1242.00 | 1781.00 |
| 25 km üçün | 307.00 | 444.00 | 625.00 | 819.00 | 1089.00 | 1290.00 | 1846.00 |
| 25-dən cox hər 1 km üçün | 40.00 | 50.00 | 55.00 | 65.00 | 75.00 | 85.00 | 95.00 |



*Cədvəl № 7*

| Yığımın tutulma şərti | Ölçü vahidi | Qiymət, manatla |
|---|---|---|
| Vaqonların verilib-götürülməsindən əlavə, lokomotivin digər manevr işinə görə | Manevr işinin hər yarım saatı üçün | 50.00 |
| Başqa stansiyanın yükgöndərənin (yükalanının) sifarişi ilə lokomotivin yürüşünə görə | Tarif məsafəsinin hər km-i üçün, hər iki başa | 10.00 |

## 7 Vaqon və konteynerlərdən istifadəyə görə yığım

7.1 Dəmir yoluna məxsus olmayan dalan yoluna yük əməliyyatı üçün verilən vaqon və konteynerlərə istifadəyə görə yığım tətbiq edilir, vaqon və konteynerlərin istifadə haqqının qiymətləri, onların qruppasından və istifadə vaxtının intervalından asılı olaraq diferensiallaşır.

Vaqonlar aşağıdakı qruplara bölünürlər:

I - qrup - yarımvaqon, bağlı vaqon, platforma;

II - qrup – avtomobil daşıyan vaqonlar və dumkarlar;

III- qrup - çən vaqonları, taxıldaşıyan vaqonları, fitinqli platformalar;

IV- qrup – sement daşıyanvaqon, konteyner daşıyan vaqon, I, II, III, V, VI qruplara daxil olmayan digər vaqonlar 12 oxlu transportyorlar;

V- qrup – refrijerator vaqonlar, 16-və yuxarı oxlu transportyorlar;

VI- qrup – vaqon termoslar.

Konteynerlər aşağıdakı qruplara bölünürlər:

I qrup – 5 tona qədər konteynerlər;

II qrup – 10-24 tonluq konteynerlər;

III qrup – 24 tondan yuxarı çəkisi olan konteynerlər.

7.2 Dəmir yoluna məxsus lokomotivlə dəmir yoluna məxsus olmayan dalan yoluna verilib-götürülən vaqon və konteynerlərin istifadəsinə görə ödənişli vaxt yüklü və boş vaqon və konteynerlərin faktiki olaraq yükləmə-boşaltma yerinə və ya çıxarıcı yola verildiyi andan yükalan (yükgöndərən) dəmir yol stansiyasına vaqonun yükləmə-boşaltma yerindən və ya çıxarıcı yoldan götürülməyə hazır olduğunu bildirdiyi ana qədər olan müddət götürülsün.

7.3 Dəmir yoluna məxsus olmayan dalan yoluna yükləmə-boşaltma əməliyyatı üçün verillən məxsusluğundan asılı olmayaraq bütün vaqon

və konteynerlərin (dalan yolu sahibinin ünvanına daxil olmuş özəl və icarə vaqonlar, konteynerlər istisna olmaqla) dalan yolunda boşdayanmasına görə istifadə haqqı cədvəl № 8 və cədvəl № 9- da verilmiş qiymətlərə görə hesablansın.

Vaqonların (konteynerlərin) dəmir yoluna məxsus olmayan dalan yolunda boşdayanması uzun müddət davam edərsə, Cəmiyyət rəhbərliyi tərəfindən vaqonlardan (konteynerlərdən) istifadəyə görə yığım yükalanı (dalan yolu sahibini, yükgöndərəni) yazılı formada məlumatlandırdıqdan 24 saat sonra 5 dəfəyə qədər artırıla bilər.

Dəmir yoluna məxsus olmayan dalan yolunda özəl və icarə vaqonlarının (konteynerlərinin) dalan yolunun və həmin vaqonların (konteynerlərin) sahibləri arasında qarşılıqlı razılaşması əsasında uzun müddət saxlanması barədə dəmir yolu əvvəlcədən rəsmi məlumatlandırıldığı təqdirdə 7.3 bəndinə əsasən tətbiq edilən yığım tutulmasın. Bu dalan yolunun istismar edilməsi barədə müqaviləyə edilmiş əlavələrlə tənzimlənsin.

Refrijerator bölməsinin (seksiya) tərkibində olan refrijerator vaqonlarının ödənişli istifadə müddəti bu bölmənin sonuncu vaqonunun yüklənməsi (boşaldılması) qurtardığı andan hesablansın.

- Refrijerator bölməsinin (seksiya) vaqonlarının yüklənməsi (boşaldılması) əməliyyatı ayrı-ayrı stansiyalarda həyata keçirilərsə ondan istifadə haqqı yalnız əməliyyat altında olan vaqon üçün tutulsun;
- Temperatur rejimi saxlanılmadan istismar olunan refrijerator vaqonların istifadəsinə görə yığım cədvəl № 8- dəki qiymətləri 0,8 əmsalına vurmaqla müəyyən edilsin;
- 16 və daha artıq oxlu, xidməti briqada tələb olunmayan transportyorların istifadəsinə görə yığım cədvəl № 8- dəki qiymətləri 0,6 əmsalına vurmaqla müəyyən edilsin;
- Taralı çəkisi 20 - 25 ton olan refrijerator konteynerlərin istifadəsinə görə yığm cədvəl № 8- dəki qiymətlərini 2 əmsalına, taralı çəkisi 32 - 40 ton olan refrijerator konteynerlərin istifadəsinə görə yığım cədvəl № 9- dakı qiymətlərini 2.5 əmsalına vurmaqla vurmaqla müəyyən edilsin.



***Cədvəl № 8***

| Vaxt (saat) | Vaqondan istifadə haqqı (vaqonun qurupuna görə) manatla | | | | | |
|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI |
| 1 | 1.02 | 1.55 | 1.22 | 0.96 | 6.25 | 2.51 |
| 2 | 1.53 | 2.33 | 1.83 | 1.44 | 9.38 | 3.77 |
| 3 | 2.04 | 3.11 | 2.44 | 1.92 | 12.51 | 5.03 |
| 4 | 2.55 | 3.89 | 3.05 | 2.4 | 15.64 | 6.29 |
| 5 | 3.06 | 4.67 | 3.66 | 2.88 | 18.77 | 7.55 |
| 6 | 3.57 | 5.45 | 4.27 | 3.36 | 21.9 | 8.81 |
| 7 | 4.08 | 6.23 | 4.88 | 3.84 | 25.03 | 10.07 |
| 8 | 4.59 | 7.01 | 5.49 | 4.32 | 28.16 | 11.33 |
| 9 | 5.10 | 7.79 | 6.10 | 4.80 | 31.29 | 12.59 |
| 10 | 5.61 | 8.57 | 6.71 | 5.28 | 34.42 | 13.85 |
| 11 | 6.12 | 9.35 | 7.32 | 5.76 | 37.55 | 15.11 |
| 12 | 7.01 | 10.72 | 8.39 | 6.61 | 42.09 | 17.31 |
| 13 | 7.90 | 12.09 | 9.46 | 7.46 | 46.63 | 19.51 |
| 14 | 8.79 | 13.46 | 10.53 | 8.31 | 51.17 | 21.71 |
| 15 | 9.68 | 14.83 | 11.60 | 9.16 | 55.71 | 23.91 |
| 16 | 10.57 | 16.2 | 12.67 | 10.01 | 60.25 | 26.11 |
| 17 | 11.46 | 17.57 | 13.74 | 10.86 | 64.79 | 28.31 |
| 18 | 12.35 | 18.94 | 14.81 | 11.71 | 69.33 | 30.51 |
| 19 | 13.24 | 20.31 | 15.88 | 12.56 | 73.87 | 32.71 |
| 20 | 14.13 | 21.68 | 16.95 | 13.41 | 78.41 | 34.91 |
| 21 | 15.02 | 23.05 | 18.02 | 14.26 | 82.95 | 37.11 |
| 22 | 15.91 | 24.42 | 19.09 | 15.11 | 87.49 | 39.31 |
| 23 | 16.80 | 25.79 | 20.16 | 15.96 | 92.03 | 41.51 |
| 24 | 18.85 | 28.91 | 22.60 | 17.64 | 103.48 | 46.56 |
| 25 | 20.90 | 32.03 | 25.04 | 19.32 | 114.93 | 51.61 |
| 26 | 22.95 | 35.15 | 27.48 | 21.00 | 126.38 | 56.66 |
| 27 | 25.00 | 38.27 | 29.92 | 22.68 | 137.83 | 61.71 |
| 28 | 27.05 | 41.39 | 32.36 | 24.36 | 149.28 | 66.76 |
| 29 | 29.10 | 44.51 | 34.80 | 26.04 | 160.73 | 71.81 |
| 30 | 31.15 | 47.63 | 37.24 | 27.72 | 172.18 | 76.86 |
| 31 | 33.20 | 50.75 | 39.68 | 29.40 | 183.63 | 81.91 |
| 32 | 35.25 | 53.87 | 42.12 | 31.08 | 195.08 | 86.96 |
| 33 | 37.30 | 56.99 | 44.56 | 32.76 | 206.53 | 92.01 |
| 34 | 39.35 | 60.11 | 47.00 | 34.44 | 217.98 | 97.06 |
| 35 | 41.40 | 63.23 | 49.44 | 36.12 | 229.43 | 102.11 |
| 36 | 43.45 | 66.35 | 51.88 | 37.80 | 240.88 | 107.16 |
| 37 | 45.50 | 69.47 | 54.32 | 39.48 | 252.33 | 112.21 |
| 38 | 47.55 | 72.59 | 56.76 | 41.16 | 263.78 | 117.26 |
| 39 | 49.60 | 75.71 | 59.20 | 42.84 | 275.23 | 122.31 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 40 | 51.65 | 78.83 | 61.64 | 44.52 | 286.68 | 127.36 |
| 41 | 53.70 | 81.95 | 64.08 | 46.20 | 298.13 | 132.41 |
| 42 | 55.75 | 85.07 | 66.52 | 47.88 | 309.58 | 137.46 |
| 43 | 57.80 | 88.19 | 68.96 | 49.56 | 321.03 | 142.51 |
| 44 | 59.85 | 91.31 | 71.40 | 51.24 | 332.48 | 147.56 |
| 45 | 61.90 | 94.43 | 73.84 | 52.92 | 343.93 | 152.61 |
| 46 | 63.95 | 97.55 | 76.28 | 54.60 | 355.38 | 157.66 |
| 47 | 65.58 | 100.67 | 78.72 | 56.28 | 366.83 | 162.71 |
| 48 | 67.63 | 103.79 | 81.16 | 57.96 | 378.28 | 167.76 |
| 48 saatdan sonra hər saat üçün | 2.05 | 3.12 | 2.44 | 1.68 | 11.45 | 5.05 |

*Cədvəl № 9*

| vaxt (saat) | Konteynerlərin istifadə haqqı(konteynerin qrupuna görə) manatla | | |
|---|---|---|---|
| | I | II | III |
| 1 | 0.08 | 0.26 | 0.42 |
| 2 | 0.12 | 0.39 | 0.63 |
| 3 | 0.16 | 0.52 | 0.84 |
| 4 | 0.20 | 0.65 | 1.05 |
| 5 | 0.24 | 0.78 | 1.26 |
| 6 | 0.28 | 0.91 | 1.47 |
| 7 | 0.32 | 1.04 | 1.68 |
| 8 | 0.36 | 1.17 | 1.89 |
| 9 | 0.40 | 1.30 | 2.10 |
| 10 | 0.44 | 1.43 | 2.31 |
| 11 | 0.48 | 1.56 | 2.52 |
| 12 | 0.56 | 1.78 | 2.90 |
| 13 | 0.64 | 2.00 | 3.28 |
| 14 | 0.72 | 2.22 | 3.66 |
| 15 | 0.80 | 2.44 | 4.04 |
| 16 | 0.88 | 2.66 | 4.42 |
| 17 | 0.96 | 2.88 | 4.80 |
| 18 | 1.04 | 3.10 | 5.18 |
| 19 | 1.12 | 3.32 | 5.56 |
| 20 | 1.20 | 3.54 | 5.94 |
| 21 | 1.28 | 3.76 | 6.32 |
| 22 | 1.36 | 3.98 | 6.70 |
| 23 | 1.44 | 4.20 | 7.08 |
| 24 | 1.56 | 4.62 | 7.62 |
| 25 | 1.68 | 5.04 | 8.16 |
| 26 | 1.80 | 5.46 | 8.70 |



| | | | |
|---|---|---|---|
| 27 | 1.92 | 5.88 | 9.24 |
| 28 | 2.04 | 6.30 | 9.78 |
| 29 | 2.16 | 6.72 | 10.32 |
| 30 | 2.28 | 7.14 | 10.86 |
| 31 | 2.40 | 7.56 | 11.40 |
| 32 | 2.54 | 7.98 | 11.94 |
| 33 | 2.64 | 8.4 | 12.48 |
| 34 | 2.76 | 8.82 | 13.02 |
| 35 | 2.88 | 9.24 | 13.56 |
| 36 | 3.00 | 9.66 | 14.10 |
| 37 | 3.12 | 10.08 | 14.64 |
| 38 | 3.24 | 10.50 | 15.18 |
| 39 | 3.36 | 10.92 | 15.72 |
| 40 | 3.48 | 11.34 | 16.26 |
| 41 | 3.60 | 11.76 | 16.80 |
| 42 | 3.72 | 12.18 | 17.34 |
| 43 | 8.84 | 12.6 | 17.88 |
| 44 | 3.96 | 13.02 | 18.42 |
| 45 | 4.08 | 13.44 | 18.96 |
| 46 | 4.20 | 13.86 | 19.50 |
| 47 | 4.32 | 14.28 | 20.04 |
| 48 | 4.44 | 14.70 | 20.58 |
| 48 saatdan sonra hər saat ücün | 0.12 | 0.42 | 0.54 |

## 8 Konteyner meydançalarında konteyner əməliyyatına tətbiq edilən yığım

1 Konteynerlərlə yük əməliyyatı üçün açıq olan stansiyalarda konteynerlərə aşağıdakı vahid yığımı tətbiq edilsin. (cədvəl №10)

***Cədvəl № 10***

| Konteynerin tipi | Ölçü vahidi (manat) |
|---|---|
| **Dolu konteynerlərə:** | |
| 10 ton və 10 tona qədər | 20.00 |
| 20 ton və 30 tona qədər (20 fut) | 50.00 |
| 30 ton və 30 tondan yuxarı (40,45 fut) | 80.00 |
| **Boş konteynerlərə:** | |
| 10 ton və 10 tona qədər | 10.00 |
| 20 ton və 30 tona qədər (20 fut) | 20.00 |
| 30 ton və 30 tondan yuxarı (40,45 fut) | 20.00 |

Xüsusiləşdirilmiş konteynerlərin yüklənməsi və boşaldılması üçün yığım universal konteynerlər üçün olan qiymətlər kimi götürülsün.
Yükgöndərən, yükalan konteynerlərin yükləmə-boşaltma işini konteyner meydançalarında apardığı zaman, texnoloji iş prosesi nəzərə alınmaqla 48 saat müddətində boşaldılmadıqda, konteynerin qorunma yığımı cədvəl № 5- ə və konteynerdən istifadə haqqına görə ödənişli vaxt boş (yüklü) konteynerin yükgöndərənə, yükalana verilmə anından konteynerin stansiyaya qaytarılma anına qədər olan müddət götürülməklə cədvəl № 9- a əsasən hesablansın.
Konteyner əməliyyatına açıq olmayan digər stansiyalarda konteynerlərlə yük əməliyyatının aparılması, müvafiq razılaşmaya əsasən təmin edilsin.



## 9. YÜK DAŞIMALARI ÜZRƏ XİDMƏTLƏRƏ GÖRƏ YIĞIMLARIN HESABLANMASI VƏ TƏTBİQİ QAYDALARINA DAİR MİSALLAR

**Misal 1:** Stansiyaya ümumi istifadə yolunda boşaldılması (yüklənməsi) üçün 2 vaqon daxil olmuşdur. Bu halda vaqonlar stansiyanın texnoloji iş prosessi nəzərə alınmaqla yükləmə-boşaltma yerinə verildiyi gün daxil olmaqla, növbəti günün 24 saat müddətində boşaldığı halda vahid yığım cədvəl № 2-yə əsasən **150.00 manat** təşkil edir.

**Misal 2:** Stansiyaya ümumi istifadə yolunda boşaldılması (yüklənməsi) üçün 7 vaqon daxil olmuşdur. Bu halda vaqonlar stansiyanın texnoloji iş prosessi nəzərə alınmaqla yükləmə-boşaltma yerinə verildiyi gün daxil olmaqla, növbəti günün 24 saat müddətində boşaldığı halda vahid yığım cədvəl № 2-yə əsasən **7 vaqon x 50.00 manat = 350.00 manat** təşkil edir.

**Misal 3:** Stansiyaya ümumi istifadə yolunda boşaldılması (yüklənməsi) üçün 2 vaqon daxil olmuşdur. Əgər vaqonlar stansiyanın texnoloji iş prosessi nəzərə alınmaqla yükləmə-boşaltma yerinə verildiyi gün daxil olmaqla, növbəti günün 24 saat müddətində boşalmadısa, (yüklənmədisə) bu müddətdən növbəti 2 vaqon/gün sonra boşaldıldığı (yükləndiyi) halda, vahid yığım **150.00 manat + (2 vaqon x 2 gün x 125.00 manat) = 650.00 manat** təşkil edir.

**Misal 4:** Dalan dəmir yolunun hər iki tərəfə verilib-götürülmə məsafəsi 9 km-dir. Eyni vaxtda verilən vaqonların sayı 10 vaqon olduğu və müxtəlif vaxtlarda bir dəfə 2 vaqon, növbəti dəfədə 8 vaqon olmaqla götürüldüyü halda vaqonların dalan yoluna verilib-götürülmə yığımı aşağıdakı kimi hesablanaraq tutulmalıdır. 9 km-ə uyğun olaraq cədvəl № 6-ya əsasən 10 vaqonun üçün yığım **344.00 manat,** 2 vaqon üçün **194.00 manat** və 8 vaqon üşün isə **344.00 manat** təşkil edir. Bu halda vaqonların verilib-götürülmə yığımı **(344.00 + 194.00 + 344.00 ) / 2 = 441.00 manat** təşkil edir.

"Vətənoğlu" NP MMC-nin
mətbəəsində çap edilmişdir
Ünvan: Əliyar Əliyev küçəsi 108
Tel: +994 12 563 02 94